Siyahətu fi kitabil "Kəfi"

Şeyh Usman Xəmis (h)

Ərəb dilindən tərcümə. Bakı 2006 il.
Redaksiya və şərh: Abu Əli "Əfəndi" Abdullah Al Ucarı
Mütərcim: Anar.

Müqəddimə

Allaha şükür olsun! Mərhəmət peyğəmbəri Məhəmməd əl-Mustafaya, onun pak, mömin nəslinə və əshabələrinə Allahın salavatı və salamı olsun!
İndiki vahtda gecə-gündüz şiyə-sünni birliyinə cağıran insanlar var. Biliyi olmayan şəhs “islam birliyi”, “müsülman arasinda vəhdət” kimi şuarlara aldanıb, xəmin yola (yanı birliy yoluna) cox gözəl baxıb, və bu iki din arasında olan (yani islam və şiyəlik arasında) fərgləri üzə cixardan insanlara cox pis baxır. Amma rədd olsun o birlik ki, Islamın alçaldılması hesabına olacaq. Məhv olsun o ittifaq ki, Məhəmməd peyğəmbərin (s.s), onun əshabələrinin, qadınlarının (Onların hamısına Allahın salavatı və salamı olsun!) namusu hesabına bina olacaq.
Bu balaca kitabda, şiyə tərigətin əsas kitabı olan, Məhəmməd ibn Yagub Al Kuleyni tərəfindən yazılan, “Əl Kəfi” kitabı barəsində söhbət açılacag.
Bu kitabın tərcüməsini edən qardaşa, və ona kömək yetirən müsülmanlar üçün dua edirəm ki, Allah giyamətdə mizanda savablarini bol-bol artırsın, və onların günahlarını bağışlasın.
Kitabda Vasif Məmmədəliyev və Ziya Bünyadovun Quran tərçüməsi istifadə olunub.
Bacardiğim qədər çalıştım kitabın mətnini faydalı dipnotlar ilə açiğlayım.Yardım Allahdandır!
Müəllifin dipnotları altında xətt çekilib, Anar qardaşımız tərəfindən olunan qeydlərin axırında (Mütərcim)yazılıb, qalan izahları isə, mən Allahın zəlil qulu etmişəm.
Şübhəsiz ki, heç bir iş nöqsansız deyil, o çümlədən bu işimiz. Pak və nöqsansız olan isə yalnız Allahdır.
Hər bir qeydlərivizi, və təkliflərivizi bu ünvana yolayın.
rafidadestroyer@yahoo.co.uk

Abu Əli

“Əfəndi” Abdulla Al Ucari.

Baki. 23/10/2006

Müqəddimə

Bismillahi Rahmani Rahim. Peyğambər və Nəbilərin ən şərəflisi olan, ağamiz Məhəmmədə, onun ailəsinə və səhabələrin hamısina Allahın salamı və xeyr duası olsun.
Bu yazı mənim hörmətli şeyxim Usman Xəmisin bəhrələrindən biridir. Allahın köməyi və öz biliyin genişliyi sayəsində, bu hagda geniş söz söyləmişdir. Onlari sizə 12 imam şiyələrinin ən mühüm və dəqiq kitabı olan "Əl Kəfi"-yə səyahət adi altinda yazılı sürətdə təqdim edirəm[1].
(Tapmağa hasant olsun deyə) internetdə olan "Kəfi" kitabından şeyxin nəql etdiyi rəvayətləri burada getirirəm. Bu yazı, təmami ilə şeyxin fəsil və səhifə nəql etdiyi kimidir. Eyni zamanda, şeyxin muhazizə formasında söylədiyi üçün istifadə etdiyi ləhçə sözlərini, mənanı deyiştirmiyəcək şəkildə əvəz etmişəm[2]. Mən, təqdim etdiyi (elmi bəhrələri) və etməkdə olduğuna görə Allahdan hörmətli şeyximizə ən yaxşı ödənişi (savabı) diləyirəm. Eyni zamanda bizidə bu əcrdən məhrum etməməyi diləyirəm. O, Eşidən və dualara cəvab verəndir.

Abu Badr

Müqəddimə.

Allahıin adı ilə. Əssələmu aleykum va rəhmətulah. Allah sizi saxlasın qardaşlar. Mən, bizi və sizi, Allahın sevdiyi və razı qaldığı şeylərə muvəffəq etməyi Ondan diləyirəm. Allaha həmd olsun! Aləmlərə rəhmət olaraq göndərilən peyğambərimiz Məhəmmədə, ailəsinə və səhabələrin hamısina Allahın salamı və xeyr duası olsun.
Əcəmlər Buveyh dövləti zamanında şiəliyi yaymağa başladılar. Bu hicri təqvimi ilə 4-ci əsrdə baş vermişdir. Onlar peyğambərin (s.a.s) ailəsinin etmədiyı şirk və yalanları, onların adına yazıblar. İnşAllah bu gecə biz onları sizə aciğlayarıq. Əfsuslar olsun ki bəzi insanlar bu yalanlara inanmışlar. Buna ən yaxşi misal, 12 imam şiələrinin əksər alıimləri düzgün saydığı, əlimizdə olan "Əl Kəfi" kitabıdır. O kitabın hamısının düzgün olmadiği deyərkən, "Kəfi"-nin onlarda umumən ən düzgün kitab oldüğünü təsdiqləyirlər.Umumi rəyə görə, bu kitab, bu sapıq dəstənin hər hansi başqa kitabı ilə muqaisə oluna bilməz. Bu kitabın müəlifi əcəmlərdən[3] biridir. Adı Məhəmməd ibn Yaqub Kuleynidir. Bu kitabı nə Əli ibn Abu Talib (r.a) nədə onun övladları yazdığını bilərək, bu əcəmi bu kitabı özü yazmış və

---

[1] Yani şeyx Usman Xəmis haradasa danişib, bu adam isə onun sözlərini toplayıb (Mütərcim). Cox güman ki söhbət "Mustagilla" televiziya kanalı ilə yayımlanan verilişlərdən gedir.
[2] Yani ədəbi ləhcəyə (Mütərcim).
[3] Yani geyri ərəb (Mütərcim).

yazdığlarını onlara (Əhli-beytə) hec bir sənəd olmadan, yalandan nisbət edib.Məhəmməd ibn Həsəndən rəvayət olunurdıki: “Atam Əbu Cəfərə ikinciyə dedi: “Sənə fəda olum, bizim şeyxlərimiz Əbu Cəfər və Əbu Abdullahdan rəvayət etmişlər, o vaxtlar isə təqiyyə güclü idi. Ona görə də onlar kitablarını gizlətmişlər, sizlərdə onlardan rəvayət etməmisiz. Onlar öləndə, kitabları bizə gəlib catıb. (O) dedi: “Onunla söyləmişlər, oda haqdtir”. Deməli, əgər onlarda Cəfər Sadiq və onun atası Məhəmməd Baqirə çatan bir başa isnad yoxdursa Həsən, Huseyn, Əli ibn Abu Talibə (Onların hamısına Allahın salavatı və salamı olsun) və Məhəmməd peyğambərə (s.a.s) çatan isnad haradan ola bilər? Onlar iddia edirlər ki, bunu təqiyyə ucbatından ediblər. Eyni zamanda iddia edirlər ki, şiələr öz elmlərini təqiyyə aradan qalxdığı üçün yalnız Cəfər Sadiqin dövründə üzə çixara bilmişlər. Bax belə biz bitmək bilməyən təzadlarla üzləşirik.

Usman Xəmis.

Kuleyni kimdir?

Məhəmməd Yaqub Kuleyni, İrandaki Kuleyn şəhərində anadan olub. O, Kuleyni və Razi kimi tanınıb. Onu həmçinin Əbu Cəfər Avar Sələsli Bağdadi kimidə tanınır. Öz vaxtında şiyələrin Reydə şeyxi və hörmətli şəxsiyyəti olmuşdur. Onun məclislərində elm tələbələri ilə səyahət eləyən alimlər olmuş və onun halqalarında ondan dərs və məsləhət almaq üçün iştirak etmişlər. Şiələrə görə, o dərin bilikli alim, etibarli hədisçi, ədalətli və dəyərli söz sahibi idi[4]. Onlara görə, Kuleyni imami fəqihlərin şeyxi, böyük elm sahibi və fəzilətli ədəb sahibi hesab olunur. Bundan əlavə o, ixlas, ibadət, zahidlik və bilik numunəsi idi.
Nəcaşi onun haqqinda deyib: “Dövründə bizim məzhəbin Rey kəndindəki ustadı və ən məşhur şəxsi idi. Hədis sahəsində insanların arasında ən güvənilən və ən sağlam adam idi”. Tusi deyib: “Güvəniləndir, rəvayətləri bilir”. İbn Taus deyib: “O, etibarliğina ittifaq olunmuş, şeyx Məhəmməd ibn Yaqub Kuleynidir”. Tibbi onu ümmətin islahatcilarından, hesab edir, özüdə yüzlüyün əvvəlində, 4-çü yüzlüyü nəzərdə tuturam[5]. Bu Kuleyni şiə nəzərində yaman güvənilən sayılıb. Mirzə Abdulla Əfəndi onun haqqinda belə demişdir: “İslamın güvənci (sik`atul islam), islamın e`tibarlı haqqında soruşsan, deyərlər ki (bil ki) o, Kuleynidir”. Abdulla Şuştari deyib: “O, islamın e`tibarlı (sik`atul islam), insanların numunəsi və elmlərin elmmidir. Kütlə və seçilmişlərin böyük öndəri şeyx Əbu Cəfər Məhəmməd ibn Yaqub Kuleynidir.

---

[4] Kuleyni haqqinda şiə alimləri deyiblər: Nəcaşı belə deyir: “Dövründə bizim məzhəbin Rey kəndindəki ustadı və ən məşhur şəxsi idi. Hədis sahəsində insanların arasında ən güvənilən və ən sağlam adam idi” (bax “Rical” Nacaşi səhifə 266); At Tusi deyib: “Güvəniləndir, rəvayətləri bilir” (bax “Fihrist” Tusi səhifə 135); ibn Şəhraşub deyib: “Rəvayətlər sahəsində alimdir” (bax “Məalimul ulama” səhifə 88). (Azərbaycan dilində, “Mubahilə” tərəfindən, 2005 ildə nəşr olunan “Usuli kəfi” kitabın 5 səhifəsinə baxin).
Həmcinin “İslama xidmət ücün dünya təşkilatı” tərəfindən yayımlanan “Əl Kəfi” kitabul huçat, mügəddiməsində yazılıb: “Bu kitabı öyrənənlər ilə birlikdə, biz inanıriq ki “Əl Kəfi” din elmlərini özündə toplayan o dərəçədə yetərli kitabdır ki, onun müəllifi yüksək hörmətə layiq, cox güvənilən bir şəxsdi” (Bax İngilis dilində “Əl Kəfi” kitabul hucat, səhıfə 23, birinci hissə, Tehran 1981 il) .
[5] Yağin ki 400 nəfərdən birincisi.

“Əl Kəfi” kitabının imami şiələrin yanında dərəcəsi.

Kuleyni hicrətin 329 ilində vəfat edib. Ancaq onun ölüm tarixində ixtilaflar var. Bu adam “Kəfi” adlanan kitabı toplamışdır. Bu hədislər toplusu imami şiələrində ən doğru kitab hesab olunur. Geyd etmək lazımdı ki , bununla yanaşi onların bəziləri bu kitabı tam səhih olduğunu hesab etmiş, bəziləri isə, o kitabda ağla siğmayan səhvləri gördükləri zaman, onun tam səhih olduğunu inkər etmişlər. Ancaq hər halda bu kitab onların ixtilafsız olaraq ən yaxşı və ən düzgün kitabı hesab olunur. Bu kitabın müəllifi haqda onların alimlərinin söylədiklərini nəql etdikdən sonra, onların alimlərinin bu kitab haqda söylədiklərini nəql edirəm.

“Müstədrək” kitabın muəllifi olan Nuri Təbərsi deyib: “Dörd kitab[6] arasında “Kəfi”, ulduzlar arasında günəş kimidir. Əgər insaflı adam onu dərindən araştirsa, oradakı əhad[7]sənədlərinin vəziyyətini araştirmadaqdan əl kəcər[8]. Yalnız e`tibar əldə edər, onun düzgünlüyü və subutu barədə həmən şəxsdə arxayınliq əmələ gələr”[9].

Hurr Amili deyib: “Dörd kitab sahibləri və onların bənzərləri öz kitablarının subut, düzgünlük və usuluna şahidlik ediblər. Onlar etibarlı olduqları üçün nəql, rəvayət və sözlərinin qəbul olunması vaçibdir”[10].

“Muraçiat” kitabının müəllifi Əbdulhuseyn Şərəfutdin Müsavi deyib: “Kəfi, İstibsar, Təhzib, Mən lə yahduruhul faqih, mütəvətirdilər[11]. Tərkibləri şübhəsizdi. Kəfi isə onların ən əzəmətlisi, ən gədimi, ən yaxşısı və ən kəmilidir”[12].

Məhəmməd Sadig Sadr deyib: “Oxucunun mütaliəsi üçün laiqdilər. Şiələr bu dörd kitaba etibar edən toplumdur, onlarda olan rəvayətləri səhih saysalarda, onların əhli-sünnədən olan gardaşları kimi onlara (yani dörd kitaba) səhih adıni verməmişlər”[13].

Kitabın müəllifi Kuleyni, bu əsərin yazılma səbəbini soruşan şəxsə demişdir: “Dedim: Sən, sadiglərdən gələn səhih xəbərlərlə din elmini öyrənib onunla əməl edən, düz yola gəlmək istəyənin ona müraciət edəcəyi və öyrəncin kifəyətlənəcəyi din elmlərini özündə toplayan yetərli (Kəfi) vasitənin olmasını istəməzsən”[14].

---

[6] Dörd kitab bunlar-“Kəfi”, “İstibsar”, “Təhzib”, “Mən lə yahduruhul fəqih”. Oz dinlərini şiələr əsasən bu kitablar üzərində gururlar. Şərəfutdin Əbdulhuseyn Müsavi yazıb: “Kütubi-arbaə” i (yani 4 kitab), indiyə kimi 12 imamlı şiələrin üsuludin və füruid-dində mərcə və mənbəyi sayılır”. Bax “Şəhriyar” tərəfindən Azərbaycan dilində 2005 ildə çap olunmuş “Muraciat” səhifə 299.

[7] “Əhəd, lüğattə, “bir” mənasına gələn və bir şeyin sayısına dəlalət “əhəd” və ya “vahid”in çoğuludur. İstilahta isə, “təvətur” dərəcəsinə çatmayan və ya “mütəvatir” olmayan xəbərlərə (hədislərə) bir ad olaraq deyilir. “Xəbəri-vahid” dedikdə bir kişinin xəbəri nəzərdə tutulur. “Xəbəri-vahid” xəmin mənaya malikdir” (bax “Hədis usulu” prof. Dr. Talat Koçyğit, səifə 21, Türkiyə diyanət vakfi yayınları).

[8] Yani araştirmaz.

[9] “Mustadrak vasail” Təbərsi 3 çild, səifə 532.

[10] “Vasail uş-şia” 20 çild, səifə 104.

[11] “Mütəvatir” lüğatda “tetabu” etmək, yani arxasi kesliməyərək, bir-birini takip etmək deməkdi”. (bax “Hədis usulu” prof. Dr. Talat Koçyğit, səhifə 15). Şəriətə isə “adatən yalan deməkdə, bir-biri ilə razılaşmaği, mümkün -olmayan bir grup insanların rəvayət ettiği və maddi bir şeyə isnad ettikləri rivayətdir”. (bax “Mustalahul hədis” İbn Useymin səhifə 11, “Guraba” yayinevi 2004 il).

[12] “Muraçiat” 110 məktub.

[13] “Kitabu şiə” səhifə 127.

[14] “Kəfi” müqəddimə səhifə 24.

Kəfi kitabının tədqiqatçısı Nəini demişdir: “Kəfinin isnadını araşdırmaq aciz insanın işidir”[15].
Kəfinin (başqa) tədqiqatçisi Əli Əkbər Gifari demişdir: “Şiə toplumu və imamət əhli bu kitabın üstün olmasında, və onun xəbərlərinə e`tibar edib onun hökmləri ilə əməl etməkdə ittifaq etmişlər. Onlar, onun dərəcə və dəyərinin uca tutulmasında həmrəydilər ki, bu kitab kəmillik və zəbt cəhətdən tanılmış e`tibarlı şəxslərin rəvayətlərinin cəmləndiyi bir yerdir. Və bu günə kimi o kitab, şiələrdə başqa hədis üsulu kitablarından ən üstün və ən gözəl sayılır”[16].
Müfid deyib: “Kəfi şiələrin ən parlaq və ən faydalı kitabıdır”[17].
Feyz Kaşani şiə kitabları haqqında deyib: “Kəfi artıq əskik şeylərdən təmiz olduğu və üsulu əhatə etdiyi üçün onların ən şərəflisi ən e`tibarlısı, ən kəmili və ən yaxşı cəm olunmuşudur”[18].
Məclisi deyib: “Kəfi kitabı üsülların ən yaxşı toplanmışı və ən dəqiqidir. Nicat tapacaq dəstənin ən yaxşı əsəridir”[19].
Məhəmməd Əmin Əstərəbadi deyib: “Biz öz şeyxlərimizdən və alimlərimizdən bu kitaba tay olacaq kitabın islamda tə`lif olunmadığını eşitmişik”[20].
Abbas Qummi isə deyib: “Kəfi islam kitabların ən parlağı və imamiyyə kitablarının ən əzəmətlisidi. Onun kimi kitab imamiyyədə təlif olunmamışdır”[21].
Şiələr desələr ki, bu kitab tam səhih deyil, içində həm zəif, həmdə səhih hədislər varsa, bu “Kəfi”-yə tam inanan axbari və başga şeyxlər kimi alimlərin sözlərinə muhalif olacaq. (Muasir) şiələr “Kəfi”nin hamısını düz saymasalarda, icma ilə onu şiələrin ən düzgün kitabı hesab edirlər[22].
Onlar o kitabı yaxşı əsər sayıb nəinki şiələr, hətta bütün islam aləmində ona tay olacaq kitab olmadığını deyirlər. Ona görə onların indiki tacları[23]deyir: “Yetər ki biləsən: Şiələrin ən əzəmətli kitabı Kəfidir, və deyirlər ki onda minlərlə yalan var”[24].
Bu kitabın onlarda ki məqam və dərəcəsini bildikdən sonra, gəlin bu kitabın özünə səyahət eləyək. “Kəfi”-də gələn dəhşətli və komik rəvayətlərlə kifayətlənəcəm. Əgər şiə aləmində bütün komik rəvayətləri qeyd etmək istəsəydim, şiələrdə mötəbər sayılan: “Ənvaru Numaniya”, “Biharul ənvar”, “Səluni qəblə ən təfqiduni”, “Mədinətul məaciz”, “Zəhrurrabiz” və başqa etibarlı kitablarına muraciət edərdim. Ancaq mən onların ən düzgün kitabını nəzərdə tutmuşam. Oradan, nəinki peyğambər (s.a.s) və onun ahli-beytindən (r.a), heç adi bir ağıllı adamdan əmələ gəlməsi mümkün olmayan bəzi şeyləri çixartdım. Onların başqa kitablarından neisə qeyd etsəm çox təəccüblənərsiz. Ancaq məqsədimiz ixtisardı. Ona görə nəinki Kəfinin

---

[15] Tədqiqatçi Nəininin “Kitabul intisar fi sihhatil kəfi” kitabı, səhifə 8.
[16] “Kəfi” müqəddimə səhifə 26.
[17] Həmin yerdə.
[18] “Kəfi” müqəddimə səhifə 27.
[19] Həmin yerdə.
[20] Həmin yerdə.
[21] “Kunyalar və ləqəblər” kitabı, 3 çild səhifə 34.
[22] Qeyd etmək lazımdı ki Məkarim Şirazi və Cəfər Subhani fətvaları kitabında yazılıb: “Kitab (yani Kəfi kitabı) Qur`an və “Nəhcül-bəlağə”-dən sonra ən mühüm şiə kitablarından sayılır” (Bax “Dini suallara cəvablar” səhifə 261, “Mo`ce-elm” tərəfindən 2005 ildə nəşr olunub).
[23] Söhbət Ticanidən qedir.
[24] “Zikr əhlindən soruşun” səhifə 34.

hamısından, əksinə onun bir hissəsindəkilərlə kifayətlənəcəm. Yardım Allahdandır.

1) Bu kitabın sənədi, və isnad qeyd olunan adamları.

Kuleyni Kəfidə Əli ibn Abu Talibdən (r.a) rəvayət edirki, o deyib ki Peyğambərin (s.a.s) eşşəyi Ufeyr intihar etmişdir[25]. Əli dedi: "Bu eşşək dilə gəlib peyğambərlə danışmışdır: "Atam-anam sənə qurban olsun! Atam mənə, o atasından, o babasından, o da ulu babasından rəvayət etmişdir ki, Nuh ilə birlikdə gəmidə ikən, Nuh (ə) yerindən qalxmış, onu siğallayaraq belə demişdir: "Bu eşşəyin nəslindən elə bir eşşək gələcəkdir ki, peyğambərlərin ağası və sonuncusu ona minəcəkdir. Mənə son peyğambərin eşşəyi olmağı nəsib edən Allaha həmd olsun"[26].

Biz Kuleyninin isnad ilə rəvayət etdiyi bir hədisi qyed etdik. Gördüyünüz kimi onun isnadı tam şekildə eşşəklərdən ibarətdi. Ən gəribə odur ki belə bir rəvayət, özünü nicat tapacaq dəstə kimi tanıyan təriqətin ən əzəmətli kitabında yer alıb. Dərd yarı tək bir eşşək olsaydı, hədisin ravilər zənciri tamami ilə eşşəklərdən ibarətdi. Ufeyr atasından, o babasından, o da ulu babasından nəql edir. Allah Əlini (r.a) eşşək və onun əcdadlarından təvayət etməkdən üstün tutub[27]. Hədis elmi cəhətindən isə hədisdə bir çox səhv var. Birincisi isnadda məchullar[28] var. Biz bilmirik o eşşəklər e`tibar olunan, hafizəsi (guclü olan) varliqlardir yoxsa yox? Biz bu eşşəklərin tərcümeyi halını yazan alim tanımıriq. Bəlkə hörmətli oxucu mənimlə birlikdə onların tərcumeyi halını Dəmirinin "Heyvanlar həyatı" ya da Cahizinin "Əl heyvanları" kitablarında axtarsaq bir məlumat əldə edə bilərik.

İkincisi, eşşək peyğambərə nə deyir? Atam-anam sənə qurban olsun! Onun ata-anası kimdir ki onları peyğambərə qurban edir?!! Sözsüz ki bu peyğambərə bir təhqirdir. Mən deyərdim ki bu bir ədəbsizlik və amoral bir hərəkətdirki yaranmışların ağasına eşşək "Atam-anam sənə fəda olsun" desin.

Üçüncüsü bu rəvayətdə ravilər arasında yalanda ettiham olunan birisi var. O da eşşəyin babasının ulu babasıdı. Çünki o, qəti şəkildə Nuhu qörə bilməzdi. Ancaq o iddia edirdiki Nuh onun belini siğallayıb. Bu kitabın sənədlərindən bir ibrət edici numunə idi.

Kitabda kecən komik ravayətlərdən.

Əbu Cəfər və Əbu Abdullahdan: "İnsanlar Allahin elçisini yalan saydiqda, Allah yer üzündəkilərini Əlidən başqa məhv etmək istədi. Onun sözünə əsasən "Onlardan üz çevir, sən danlanmazsan". Sonra onun (Allahın) ağlına (başqa bir fikir) gəldi və möminlərə rəhm etdi. (Sonra isə) peyğambərə buyurdu: "Yada sal, həqiqətən yada salma möminlərə fayda verər"[29].

Bu kitabın (yani Kəfinin) böyük bəlalardan biridə budur ki, rəvayətlərində Allahin kitabına tə`n edirlər.

---

[25] Nəbi (s.a.s)-in vəfatından sonra.

[26] "Əl Kəfi" 1 çild, səhifə 237. Əli Əkbər Gifari təhqiki ilə, Beyrutda "Darrul ədva" tərəfindən hicri 1405 ildə çap olunub.
Müqaisə üçün Azərbaycan dilində, "Mubahilə" tərəfindən, 2005 ildə nəşr olunan "Usuli kəfi" kitabın 390 səhifəsinə baxin.

[27] Yani Əli (r.a)-yə belə bir şey yaraşmaz (Mütərcim).

[28] Hədis elmində məchul ravi, tanınmayan raviyə deyilir. Həmcinin qeyd etmək lazımdı ki bu eşşəklər çətin ki 12-imami şiəsi olsunlar. Amma şiə məzhəbinə görə hədisi nəql edənin 12 imami şiəsi olmasi, ravinin şərtlərindən sayılir (Bax Seyyid Səid Rəşadi "Hədis elmi" risalənin onuncu dərsi, səhifə 40, Bakida 2003 ildə çap olunub).

[29] "Rauzal Kəfi" səhifə 78.

Əbu Cəfərdən: “Quranı, Allah Təala tərəfindən nazil edildiyi kimi tam topladığini iddia edən kəs, şübhəsiz yalançıdır.Quranı, Allah tərəfindən endirildiyi kimi toplayan yalnız Əli ibn Abu Talib və ondan sonra qələn imamlar olublar”[30].
Əbu Həsənə deyildi: “"Sənə fəda olum, biz Qurandan elə ayələr eşidirik ki, bizdə olan kimi deyil, biz də onları sizdən eşitdiyimiz kimi oxumağı bacarmırıq. Olmaya, biz günah işlədirik?" O dedi: "Yox, siz onları öyrəndiyiniz kimi oxuyun. Vaxt gələr, sizi öyrədəcək şəxs özü gəlib çıxar”[31].

---

[30] “Əl Kəfi” 1 çild, səhifə 228. Müqaisə üçün Azərbaycan dilində, “Mubahilə” tərəfindən, 2005 ildə nəşr olunan “Usuli kəfi” kitabın 376 səifəsinə baxin.
Qeyd etmək lazımdı ki Azərbaycanda şiə təriqətin öndə qedənlərdən biri, İlqar İsmayılzadə yazıb: “İllər ötdükçə bir çox ölkələr fəth olunduğu və qeyri-ərəb millətlər İslam dinini qəbul etdiyi üçün Quran oxunuşu və hətta yazılışında müəyyən ixtilaflar və ziddiyətlət yarandı. Bu da müqəddəs Quranın təhrif olması təhlükəsini qarşəya çixartdı. Xəlifə Osman ibn Affan bu təhlükəni hiss edib, Mədinə şəhərində yaşayan Peyğambər (s.a.s) sahabələri ilə məsləhətləşdikdən sonra, Quranın vahid uslubda yazılması və toplanması üçün Übəyy ibn Kəbin rəhbərliyi altında 12 nəfərdən ibarət heyət təşkil etdi. Bu heyətdə Zeyd ibn Sabit, Malik ibn Əbu-Amir, Ənəs ibn Malik, Səd ibn As, Abdullah ibn Zubeyr və başqaları da var idi. Übəyy ibn Kab Quran surələri və ayələrini oxuyur, o birilər isə eşitdiklərini diqqətlə yazırdılar. Quran yazılışı vahid qayda və şəkildə sona yetdikdən sonra onun nüsxələri Məkkə, Mədinə, Kufə, Bəsrə, və Şam şəhərlərinə göndərildi. Qabaqca yazılmış digər Quran nüsxələri isə xəlifə Osmanın göstərişi ilə yandərəldə. Bu isə bəzi sahabələrin etirazına səbəb oldu.
Həzrət Əli (ə) Osman ibn Əffanın bu işini gözəl qiymətləndirmiş və onu təsdiq etmişdir.....Qey etmək lazımdır ki, xəlifə Osmanın göstərişi ilə toplanmış Quran digər Quranlarla fərqi, onun vahid bir qiraət əsasında olması, həmçinin, sürələrin tərtibi baxımından fərqli idi.
Bu gün bizim əlimizdə mövcud olan müqqədəs Quran da həmin üslub və tərtib əsasındadır”. Bax “Beynəlvalq islam elmləri akademiyası” tərəfindən nəşr olunan “Quran elmləri ensiklopediyası” kitabın 346-347 səhifələrinə, “Xəlifə Osman ibn Əffan zamanında Quranın toplanması” başlığı altında.
Başqa, dünya şöhrətinə malik olan, şiə alimi Məhəmməd Huseyn Təbatəbai yazıb: “Əlinin (ə) qeyd etdiyi nazilolma ardıcıllığına riayət edərək Qur`anın tərtib edilib müsəlmanlara göstərilməsinə baxmayaraq, onun tərtibi olan bu nüsxə qəbul edilmədi. Habelə, növbəti (1 və 2) nüsxələri tərtib edərkən Əli (ə) işçi qrupunun tərkibinə daxil edilmədi”. Bax “İslamda Quran” Əllama Təbatəbai səhifə 136, Baki 2004, “Qələm”.
Nəticədə biz başa düşürük ki şiə alimlərindən bir zümrə, əlimizdə olan Quranın, toplanmasında Əli (r.a)-nin iştirak eməməsini etiraf edirlər. Və onların ən əzəmətli hədis toplusunda, qeyd olunur ki Qurani tam şekildə yalnız Əli (r.a) yığıb. Əli (r.a)-nin Quranı hardadı?
Başqa bir şiə rəvayətə əsasən Quran Qiyamət günü deyəcək: “Pərvərdigara! Məni yandırdılar və parca-parca etdilər”. Bax “Darul huda” tərəfindən 2004 ildə Azərbaycan dilində Abbas Qumminin “Zübdatal ahadis” kitabının 314 səhifəsinə.
Umumiyətlə Kuleyninin Quranın təhrif olunmasına inandığını təkçə sünni alimləri yox, şiə alimlərdən Feyz Kaşani də qeyd edib: “Bizim rəhmətlik şeyxlərimizin bu məsələdə etiqadları isə “siqət əl-islam” (Islamın etibarı) təxəllüslü Məhəmməd ibn Yəqub Küleynidən (Qəbri nurla dolsun!) zahir olur ki, o da Quranın təhrif olunduğu və onda çatışmazlığın möv-cudluğu etiqadında olmuşdur. Çünki o özünün “əl-Kafi” kitabında bu mənalı rəvayətlər vermiş, kitabın əvvəlində orada rəvayət etdiklərinə inandığını qeyd etməklə yanaşı, həmin rəvayətlərə etiraz etməmişdir. Onun ustadı Əli ibn Ibrahim Qümmi də elə; onun təfsiri belə rəvayətlərlə doludur, o, bu işdə xüsusi səy göstərir. Eləcə də şeyx Əhməd ibn Əbu Talib Təbərsi (Qəbri nurla dolsun!) özünün "əl-İhticac" kitabında onları təqlid etmiş-dir”. Bax “Təfsir əs-Safi” nin müqəddiməsi, səhifə.14.
Həmcinin Quranın yığılmasında iştirak edən sahabələr şiə rəvayətlərinə əsasən mürtəddilər. “Şeyx Kəşşi İmam Məhəmməd Baqirdən (a) rəvayət edir ki, həzrət buyurdu: “Üç nəfərdən başqa hamı mürtəd oldu. O üç nəfər: Salman, Əbu Zərr və Miqdad idi”. Sonra ravi soruşdu: “Bəs Əmmar Yasir necə?” Həzrət buyurdu: “Onra bir az tərəddüd və şəkk-

Allah Təbarəkə və Təalənin kitabının təhrif olunmasına iddiasına qəlincə:

"Səlim ibn Səlmə demişdir: "Bir dəfə bir nəfərin Əbu Abdulla əleyhissəlama Qurandan başqala-rının oxuduğuna bənzəməyən bəzi şeylər oxuduğunu eşitdim. Əbu Abdulla əleyhissəlam dedi: "Müdafiəçimiz zühur edənədək bu qiraətdən imtina edib sən də camaat oxuyan kimi oxu. Qiyamətdən sonra isə Qüdrət və Cəlal sahibi Allahın Kitabı Onun Özünün istədiyi kimi oxunacaq". Sonra o, Əli əleyhissəlamın yazdığı müshəfi çıxardı və dedi: "Əli əleyhissəlam onu yazıb qurtarandan sonra adamlara göstərib demişdir: "Bu, Qüdrət və Cəlal sahibi Allahın Məhəmməd səlləllahü əleyhi və alihiyə nazil etdiyi Kitabıdır. Mən onu iki lövhədən toplamışam". Camaat demişdir: "Budur, bizdə Quranın toplandığı müshəf var, bizim ona ehtiyacımız yoxdur". O demişdir: "Onda siz onu bu gündən sonra heç vaxt görməyəcəksiniz. Mənim borcum onu toplayandan sonra sizə göstərmək idi ki, oxuyasınız".[32]

Əbu Əbdullahdan: "Həqiqətən Fatimanın mushafı də bizdədir. Siz heç bilirsiz Fətimanın müshəfi nədir?" Dedim (yani ravi dedi): "Fətimanın müshəfi nədir?". Buyurdu ki: "Sizin bu Quranınızın üç qatını əhatə edən müshafti. Allah and olsun ki, içində Quranınızdan bir hərf belə yoxtu"[33].

Bu onların təhrifə dəlalət etdiyi hədislərin bir necəsi:

Əbu Basir Əbu Abdullaha dedi: "Sənə fəda olum bu ayəni: "Biri vaqe olacaq əzab barədə soruşdu. (O əzabı) Əlinin vilayətinə inanmayanlardan (kafirlərdən) dəf edə biləcək bir kimsə yoxdur!"- biz belə oxumuruq.Dedi: "And olsun Allaha Cəbrail Məhammədə elə nazil edib, və Fatimanın kitabında belə sabit olmuşdur"[34].

şübhə yarandı və sonradan haqqa qayıtdı". Bax Əbbas Qummi "Peyğambər" kitabı səhifə 221, "Əndişeye-Hadi" nəşriyyatı tərəfindən 2004 ildə çap olunub; Məhəmməd Bakir Məclisi "Biharul anvar" 64 çild, səhifə 165.

Marağlıdı ki mürtədlər toplusu tərəfindən yığılmış kitaba şiələr necə inanırlar?.

[31] "Kəfi" 2 çild, səhifə 619.

Eyni rəvayət Tafsir "Safi" Feyz Kəşani 1 çild, səhifə 40, altıncı müqqədimə.

[32] "əl-Kafi fi əl-üsul", səhifə.633, 2-ci cild.

[33] "Kəfi" 1 çild, səifə 239. Müqaisə üçün Azərbaycan dilində, "Mubahilə" tərəfindən, 2005 ildə nəşr olunan "Usuli kəfi" kitabın 393 səifəsinə baxin.

[34] "Kəfi" 8 çild, səhifə 49. Sizə desələr ki Fatimənin (r.a) müshafi Quran deyil, bu yalandı. Deyir axi Fatimənin mushafinda sabitdir.

Qeyd etmək lazımdır ki belə də tərcümə etmək olar: "Əlinin qaçilmaz vilayətinə inanmayanlar üçün qaçılmaz olan əzab barəsində soruşan soruşdu". Sadəcə Quran ayələrini sındırmamaq üçün belə tərcümə verdim.

Sözün düzü mən bu rəvayəti "Kəfi"-nin 8 çildində, amma 57-58 səhifələrində tapdım. Buna oxşar rəvayət, amma Fatima (r.a)-nın kitabına istinadsız, Məclisi "Biharul anvar" 35/57; və "Kəfi"-də 1 çildin, 422 səhifəsində var. Müqaisə üçün Azərbaycan dilində, "Mubahilə" tərəfindən, 2005 ildə nəşr olunan "Usuli kəfi" kitabın 738 səhifəsində hədis №47 (1127) baxa bilərsiz. Düzünü Allah bilər! Amma bu kitabı şeyxin adından toplayan şəxs qeyd edib, "Kəfi"-nin xansı nəşrindən istifadə edir. Əli Əkbər Gifari təhqiki ilə, Beyrutda "Darrul ədva" tərəfindən hicri 1405 ildə çap olunub. Bu nəşri isə, kitab şəkilində əldə edə bilmədim. Əslində Quranda ayə belədir: "1 - (Kafirlərdən) biri vaqe olacaq əzab (qiyamət əzabının nə vaxt və kimə üz verəcəyi) barədə soruşdu. 2 - (O əzabı) kafirlərdən dəf edə biləcək bir kimsə yoxdur! 3 - (O əzab yüksək) dərəcələr sahibi olan Allahdandır!". Bax əl-Məaric sürəsi. Başqa şiə alimi Şərəfutdin Əli Huseyni İstirabadi, nəql edib ki imam Əbu Abdullah bu ayələri belə oxuyub: "Biri vaqe olacaq əzab barədə soruşdu. (O əzabı) Əlinin vilayətinə inanmayanlardan (kafirlərdən) dəf edə biləcək bir kimsə yoxdur!" !(O əzab yüksək) dərəcələr sahibi olan Allahdandır!" Oxuyub bitirəndən sonra o (yani imam) dedi: "Fatimanın müshafinda belədi". Bax İstirabadi "At tavil ayatul zahir" 2 çild, səhifə 284

Fatimanın kitabı Quran olmasada, ən azı Qurani Kərimdən sonra qələn bir vəhydir. Kuleyni Cəfar Sadiqdan (r.a) rəvayət edir: "Həzrəti Fatima Rəsululahdan sonra (vəfatı qəsd olunur)

Əbu Abdullah dedi: “Cəbrailin Məhəmmədə (s.a.s) getirdiyi Quran 17000 ayədir”[35]. Buda şəksiz, Quranın üç mislidir. Məlumdur ki, Quranın ayələrinin sayı altı mindən bir az çoxdur. Deməli söhbət onların iddia etdikləri Fatimənin (r.a) müshəfi barəsində qedir.
Kuleyni öz kitabında “Vəhy edildiyi kimi, Quranın hamısını, ancağ imamlar toplamışlar”[36]-adlı bir başlıq qoymuşdu.
Allah Təbarəkə və Təalənın kitabının təhrif olması barədə sizə bir neçə bənd oxuyuram.

---

75 gün həyatda qaldı. Atasının itirməyin təsiri ilə böyük bir kədərə qərq oldu. Cəbrayil (ə) onun yanına gəlib atasının ölmünə görə ona təsəlli verir, könlünü xoş edirdi. Bu zaman atasından və məkanından bəsh edir, özündən sonra nəslindən gələnlərin başına gələçək hadisələri xəbər verirdi. Əli (ə) bunları yazırdı. Bax, həzrəti Fatimanın müshəfi budur” (“Usuli kəfi” kitabın 396 səifəsində, 634 nömrəli rəvayətə baxın). Sonra 397 səhifənində 637 hədisdə yazılıb: “Yer üzündə hakimlik edəçək elə bir sultan yoxdur ki, onun adı bu kitabda yazılmasın”.
Nəbi (s.a.s) vəfatından sonra Cəbrayil (ə) tərəfindən getirilmiş, Quranda olan elmin 3 qatını əhatə edən, gələcəkdən belə dəqiq xəbər verən kitab harada? Bu rəvayətlərə əsasən demək olar ki Quran şiələr üçün axırıncı səmavi vəhy deyil .
Seyid Şübbar imam Baqirdən rəvayət getirir: “Qədir gecəsi məsum imama (ə) bir ildə baş verən işlərin bəyanı nazil olur”. Bax “Camiə-Kəbirə” ziyarətinin şərhi” səhifə 22, Azərbaycan dilində tarixsiz.
Eynı kitabın 23 səhifəsində o rəvayət edir ki peyğambər (s.a.s) əlini Əli (r.a)-nin başına qoyub, dedi: “Məndən sonra bu şəxsə vəhy nazil olacaqdır”.
Azərbaycanda şiələrin elm insanlarndan biri İlqar İsmayilzadə öz kitabında yazıb: “Vəhy olunmuş şəhs hökmən ilahi peyğəmbər sayılır” Bax “Quran elmləri ensiklopediyası” səhifə 104.
Əyətullah Seyid Abdullah Şubbar imamları Məhəmməd (s.a.s) haric, hər bir peyğəmbərdən üstün sayıb. O yazıb: “Məsum imamlar (ə) islam peyğəmbərindən başqa bütün ilahi peyğəmbərlərdən üstündilər”. Bax “Camiə-Kəbirə” ziyarətinin şərhi” səhifə 39, Azərbaycan dilində tarixsiz.
Şiə alimlərin özləri imamları peyğambər niyə görə saymamaq başa düşməyiblər. Məhəmməd Baqir Məclisi yazıb: “Axırda, imamların peyğambər olmadığını dərk edəndən sonra, biz məcburuq ki onları bizim peyğambərdən başqa, hər peyğambərdən və nəbidən üstün sayaq. Bizim elmimizə görə (Məhəmməd) peyğambər axırıncı peyğambər olması, sabit olmaqdan başqa, hec bir mane yoxtur ki biz imamları peyğambər sayaq. Bizim aqlımızda imamət ilə nübüvət arasında fərq görmür”. Bax “Biharul anvar” 26 çild, səhifə 82.
Əyətullah Seyid Abdullah Şubbar hətta imamları ilahi sifətlərin daşıyıcıları kimi qələmə verib: “İmamlar (ə) Allahın hüccətləri, yani xalq üzərində ən ali hüccətlərdilər. Onlar ilahi sifətlər ilə zinətləniblər, tamam vücudları Allahın sifətləridir”. Bax “Camiə-Kəbirə” ziyarətinin şərhi” səhifə 48, Azərbaycan dilində tarixsiz.
[35] “Kəfi” çild 2, səhifə 634.
Şiələrin başqa məşhur alimi, Məhəmməd Bakir Məclisi “Miratul ugul” kitabının, 12 çildin 525 səhifəsində, qeyd edir ki bu rəvayət səhihdi. Və hətta belə rəvayətlərin sayı “tavatur” dərəcəsinə catır. Bu hədisə cəvab tapa bilməyən -şiyələr, başlayırlar Əhli-sünnə alimlərin kitablarını qurdalamağa. Və cox vaxti Cəlaladdin Süyutinin “Əl-İtqan fi ulumil-Quran” kitabından belə bir rəvayətləri getirirlər: “Təbərani xəlifə Ömər ibn Həttabdan belə dediyini nəql etmişdir: “Quran bir milyon iyirmi yeddi min hərfdən ibarətdir” (Bax “Quran elmləri ensiklopediyası” İlqar İsmayilzadə səhifə 293). Bu hədisi nəql etdikdən sonra dərhal deyirlər ki: “İndi nə deyirsiz Süyuti təhrifə inanıb”?
Çəvab olaraq, onların Azərbaycanda olan em əhlindən citat qetiririk: “Qeyd etmək lazımdı ki, Cəlaləddin Süyuti Quran hərflərinin bu rəvayətdə qeyd olunmuş rəqəmə çatmadığını e`tiraf etsədə, bu rəvayətin Quranın “nəsx” olunmuş hissəsinə aid olması ehtimalını irəli sürmüşdür. Bir xalda ki, müqəddəs Quranın bu həcmdə hissəsinin nəsx olunduğunu hələ heç kəs iddia etməmişdir.” (Bax “Quran elmləri ensiklopediyası” İlqar İsmayilzadə səhifə 293). Nəticə: 1) Süyuti bu hədisi şubhə altına qoyub. 2) Şiə alimi qeyd edir ki, Süyuti bu hədisi təhrif dəlalət etdiyini yox, “nəsxə” aid olması ehtimalını irəli sürmüşdür.

Zeyd ibn Cəhmdən: Dedi: "Əbu Abdullaha: "Qoy imamlar sizin imamlardan daha üstün olsun"[37]-oxudu. Dedim: "Sənə fəda olum, imamlar?" Cəvab verdi: "And olsun Allah imamlar!" Dedim: "Biz onu "ərba" oxuyuruq". Dedi: "Ərba yox, və əli ilə işarə etdi"[38].
Əbu Abdullahdan: "(O) dedi: Ayə belə enib: "Hər kəs Allaha və Peyğəmbərinə Əli və imaların vilayət məsələsində itaət etsə, böyük bir səadətə nail olar"[39].
Əbu Abdullahdan: (Bu ayəni oxuyub)"Doğrusu, bundan əvvəl Adəmə də Məhəmədi, Əlini, Fatimanı, Həsəni, Hüseyni və onların nəslini (unutmamağa) tövsiyə etmişdik. Lakin o (tövsiyəmizi) unutdu"-(sonra imam dedi): "Allah and olsun ki, Məhəmmədə (ayə) belə nazil olmuşdur"[40].
Əbu Cəfərdən: "Cəbrayil Məhəmmədə (s) bu ayəni belə nazil etmişdi: "Həsəd apardıqları üçün Allahın Əli barəsində[41] nazil etdiyini inkar edərək özlərini satmaqları nə pis bir şeydir"[42].
Əbu Əbdullahdan[43]: "Cəbrayil Məhəmmədə (s) bu ayəni belə endirmişdi: "Əgər bəndəmizə Əli haqqında nazil etdiyimizə şəkkiniz varsa, siz də ona bənzər bir surə gətirin"[44].
Sözsüz ki, bu sözlərinin hamısı Əbu Abdullahin (Cəfər ibn Sagidın) adından söylənilən yalanlardır. Biz bunu söhbətimizin əvəlində demişdik. Əbu Cəfər

---

Yaxşı onda sual yaranır, Kəfidə 17000 ayə barəsində olan, və Məclisinin səhih saydiği rəvayəti "nəsxə" niyə qörə aid etmirik? Cəvab: Şiələrdən olan elm əhlinin sözlərinə əsaslanırıq. İlqar İsmayilzadə yazıb axı: "Bir xalda ki, müqəddəs Quranın bu həcmdə hissəsinin nəsx olunduğunu (Süyutidən başqa) hələ heç kəs iddia etməmişdir".

[36] Azərbaycan dilində, "Mubahilə" tərəfindən, 2005 ildə nəşr olunan "Usuli kəfi" kitabın 376 səhifəsinə baxin (Redaktor).

[37] Yahud "Bir tərəfin imamlari diqərlərin imamlarından daha üstün olsun".

[38] "Kəfi" çild 1, səhifə 292. Müqaisə üçün Azərbaycan dilində, "Mubahilə" tərəfindən, 2005 ildə nəşr olunan "Usuli kəfi" kitabın 489 səhifəsinə baxin.
Əslində ayə belə qəlir: "Siz bir ümmət digərindən çox olduğu üçün aranızdakı andları yalana çevirirsiniz. Allah bununla yalnız sizi sınayır". Bax Nəhl sürəsi 92 ayə.

[39] "Kəfi" 1 çild, səhifə 414. Müqaisə üçün Azərbaycan dilində, "Mubahilə" tərəfindən, 2005 ildə nəşr olunan "Usuli kəfi" kitabın 724 səhifəsinə baxin.
Əslində ayə belə qəlir: "Hər kəs Allaha və Peyğəmbərinə itaət etsə, böyük bir səadətə (Cənnətə) nail olar". Bax Əhzab 71 ayə.

[40] "Kəfi" 1 çild, səhifə 416. Müqaisə üçün Azərbaycan dilində, "Mubahilə" tərəfindən, 2005 ildə nəşr olunan "Usuli kəfi" kitabın 729 səhifəsinə baxin. Cox maraqlidir ki, bu kəliməni هكذا والله نزلت على محمد صلى الله عليه وآله.
Azərbaycan dilinə "Kəfi"-ni tərçümə edən Tağizadə Elkiz Arif oqlu belə tərçümə edib "Bu ayə, bu mənanı vurğulamaq üçün Məhəmməd (s)-ə enmişdir". Ərəb dilini bilən şəxs, şubhəsiz ki belə bir tərçümənin, nə dərəcədə səhv olduğunu, başa düşər.
Qeyd etmək lazımdi ki, əslində Quranda ayə belə qəlir: "Doğrusu, bundan əvvəl Adəmə də (Şeytana uymamağı) tövsiyə etmişdik. Lakin o (tövsiyəmizi) unutdu və Biz onda (əhdi qorumağa) əzm (səbat) görmədik". Bax TaHa sürəsi 115 ayə.

[41] Ayə əslində belə qəlir: "Allahın Öz qullarından istədiyi şəxsə lütf etməsinə (peyğəmbərlik verməsinə) həsəd aparmaq, Onun göndərdiyini (Quranı) inkar etməklə (yəhudilərin) vicdanlarını satmaları nə qədər də pisdir!". Bax Baqərə sürəsi 90 ayə.

[42] "Kəfi" 1 çild səhifə 417. Müqaisə üçün Azərbaycan dilində, "Mubahilə" tərəfindən, 2005 ildə nəşr olunan "Usuli kəfi" kitabın 729 səhifəsinə baxin. Azərbaycan dilinə "Kəfi"-ni tərçümə edən Tağizadə Elkiz Arif oqlu dipnotda belə yazıb: "Bu çür rəvayətlər imamların adlarının Quranda nazil olan ayələrin icərisində zikr edildiyini işarə edir. Bunlardan: "Əl-Kəfi" də Əbül Həsəndən Məhəmməd ibn Fazil sənədi ilə varid olmüş bir hədis. İmam Cəfərə istinad edilmiş "Əl-Kəfi" də keçən digər hədisi qeyd etmək olar" "Usuli kəfi" kitabın 729 səifəsindəki, 1 nömrəli dipnota baxin.

[43] Qeyd etmək lazımdı ki, "Mubahilə" tərəfindən, 2005 ildə nəşr olunan "Usuli kəfi"-də bu hədis Cabirdən rəvayət olunur. Cox qüman ki, bu müəllifin yaxud bu (yani" Səyahət") kitabını toplayan şəxsin səhvidi. Əlhamdulillah, nöqsansız olan yalnız Allahdır .

[44] Həmin yerdə (yani "Kəfi" 1 çild səhifə 417). Müqaisə üçün Azərbaycan dilində, "Mubahilə" tərəfindən, 2005 ildə nəşr olunan "Usuli kəfi" kitabın 730 səhifəsinə baxin.

(Məhəmməd Baqir) və umumən Məhəmməd peyğambərin (s.a.s) əhli-beytindən olan başqa imamların adından söylənilən yalanlardır. Allah bu yalanı uyduranlara lənət etsin!
İmam Rzadan (Əli ibn Musa) rəvayət ediblər ki: "Müşriklərə ağır gəldi Əlinin vilayəti. Özlərini (onları) dəvət etdiyin"-Allahın ayəsi barəsində buyurub: "Bu ayə hifz edilmiş kitabda bu şekildədi"[45].
Əbu Cəfərdən (Baqir)-dən rəvayət edirlər: "Aşağdaki ayə, Məhəmməd (s.a.s)-ə bu şəkildə nazil olmuşdu: "Lakin Məhəmmədin əhli-beytinə zülm edənlər özlərinə deyilmi sözü başqası ilə deyişdilər. Və biz Məhəmmədin Əhli-beytinə qarşı zalım olanlara etdikləri zülmə görə, göydən cəza nazil etdik"[46].
Bir kişi Əbu Abdullahın yanında oxudu: "De: "İstədiyinizi edin. Allah, Onun Peyğəmbəri və möminlər əməllərinizi görəcəklər". Buyurdu ki: "Burada belə deyil. Həqiqətən burada belədi "və məmünlar[47] əməllərinizi görəcəklər" Və məmunlar bizik"[48].
Əbu Həsən Maridən: "Mən sizə nə bir zərər, nə də bir xeyir vermək qüdrətinə malik deyiləm!" "Məni Allahdan heç kəs qurtara bilməz və mən də Ondan başqa heç bir sığınacaq tapa bilmərəm! Allah dərgahından olanı və Onun Əli haqında göndərdiklərini təbliğ etməkdən başqa (əlimdən bir şey qəlməz)" (Ravi imamdan soruşdu) "Ayə belə nazil olub?" İmam dedi: "Bəli"[49].... Sonra imam buyurdu: "Ya Məhəmməd Onların sənə varisin haqqında deyəcəklərinə səbr et. Onlardan gözəl tərzdə ayrıl! Yalan sayan

---

[45] "Kəfi" 1 çild səhifə 418. Müqaisə üçün Azərbaycan dilində, "Mubahilə" tərəfindən, 2005 ildə nəşr olunan "Usuli kəfi" kitabın 731 səifəsinə baxin. Bu həisdən bir neçə nəticə cihartmaq olar. Əlimizdə olan Quranda Əlinin adı şübhəsiz yohtu. İmam qəsd etdiyi "hifz olunmuş kitab" xansi kitabdı? Çox güman ki söhbət Fatima (r.a)-nın müshafından qedir. Və oda 12-çi imamdadı.
[46] "Kəfi" 1 çild, səhifə 423. Müqaisə üçün Azərbaycan dilində, "Mubahilə" tərəfindən, 2005 ildə nəşr olunan "Usuli kəfi" kitabın 741 səhifəsinə baxin.
Qeyd etmək lazımdı ki Quranda ayə belədi: "(Özlərinə) zülm edənlər onlara deyilən (əmr olunan) sözü başqası ilə dəyişdirdilər ("bizi bağışla" mənasında işlədilən "hittə" sözünə gülərək onu "buğda" mənasında olan "hintə" sözü ilə əvəz etdilər). Biz də o zalımlara etdikləri haqsızlığa görə göydən şiddətli əzab göndərdik". Bax Bəqərə sürəsi 59 ayə.

[47] "Məmunlar"-yani e`tibar olunanlar (Mütərcim).
[48] "Kəfi" 1 çild, səhifə 424. Müqaisə üçün Azərbaycan dilində, "Mubahilə" tərəfindən, 2005 ildə nəşr olunan "Usuli kəfi" kitabın 742-43 səhifələrinə baxin. Bu kəlməni, " ليس هكذا هي، إنما هي والمأمونون، فنحن المأمونون "
Azərbaycan dilinə "Kəfi"-ni tərçümə edən Tağizadə Elkiz Arif oqlu belə tərçümə edib: "Elə deyil. Burada xəta və səhvlərdən qorunanlar nəzərdə tutulmuşdur və onlar bizik". Hədisi daha dəqig başa düşmək üçün hər iki sözün ərəbçə yazılışını qeyd edirəm. Quranda söz belə qəlir "والمؤمنون" İmam isə deyir ki söz belə olmalıdı "المأمونون". Məmun və mumin, ərəb dilində bu iki söz çox oxşar yazılışa malikdilər.
